17 aprel / 2021

Ədəbiyyat qəzeti

# Muxtar QASIMZADƏ-70



Hörmətli Muxtar Qasımzadə!

Sizi - istedadlı şairimizi 70 illiyiniz münasibətilə təbrik edirik. Siz ötən əsrin 70-ci illərində ədəbiyyata gələn, ilk şeirlərinizlə ədəbi ictimaiyyətin diqqətini cəlb edən şairlərimizdən birisiniz. İlk şeirləriniz "Azərbaycan", "Ulduz", "Qobustan" jurnallarında, "Ədəbiyyat və incəsənət", "Bakı", "Azərbaycan gəncləri", "Şərq qapısı" qəzetlərində, ədəbi almanaxlarda dərc edilmiş, orijinal lirik-poetik nümunələr kimi maraqla qarşılanmışdır.

Şeir və poemalarınız "Bu həmin sevgidir", "Sənə sarı gələn səs", "Yaddaş çırağı", "Gülü xəlvət açan dünya", "Ədalət günəşi", "İllərdən-illərə", "Nuhçıxandan gəlirəm", "Nuh diyarı Naxçıvan", "Seçilmiş əsərlər" kitablarınızdan oxuculara yaxşı tanışdır. Siz bir sıra Beynəlxalq poeziya toplantılarının təmsilçisi olmuş, şeirləriniz ingilis, rus, fars, fransız dillərinə çevrilərək çap edilmişdir.

Əmək fəaliyyətinizin 50 ili mətbuat, nəşriyyat, televiziya və radio işinə bağlı olmuşdur. "Əcəmi" nəşriyyatında çap olunmuş minə yaxın kitabın redaktorusunuz.

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə televiziya və radionun inkişafındakı xidmətlərinizə görə 2006-cı ildə "Tərəqqi" medalı ilə təltif edilmiş, 2015-ci ildə isə şair kimi Prezident mükafatına layiq görülmüsünüz.

Hörmətli Muxtar müəllim!

Sizi bir daha 70 illik yubileyiniz münasibətilə təbrik edir, cansağlığı, yeni yaradıcılıq uğurları arzulayırıq.

**Azərbaycan Yazıçılar Birliyi**